

# Kövrək xatirələrin işığında müdrikləşən ömür

*İbrahim Yusifoğlu*

**O vaxtlar ömrümüzün bahar çağıydı... Naxçıvan elinin təbiətində olduğu kimi, insanlarının qəlblərində də tumurcuq arzular yaşamaq eşqinin hərarətindən pardaxlanmışdı. Odlar yurdunun qədim və ayrılmaz parçası olan Naxçıvanda həm də sözün, sənətin, elmin və mədəniyyətin əsl mənada çiçəkləndiyi dövr idi. Naxçıvan şəhərində on ildən artıq bir dövrdə fəaliyyət göstərən pedaqoji məktəbin və yenicə müstəqil ali məktəbə çevrilən Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (indiki Naxçıvan Dövlət Universiteti) müəllim və tələbə kollektivləri ədəbi yaradıcılığa daha geniş həvəs göstərirdilər. Qapıları oxucuların üzünə açıq olan M.S. Ordubadi adına respublika kitabxanasında tanınmış şair və yazıçılarla görüşlər keçirilir, kitab müzakirələri, oxucu konfransları, disputlar təşkil olunurdu. Ömürlərinin və yaradıcılıqlarının ən şirin çağlarını yaşayan, sonradan Xalq şairi və yazıçısı adına layiq görülən İsmayıl Şıxlı, Hüseyn İbrahimov, Məmməd Araz, Fikrət Qoca, Xəlil Rzayla keçirilən ədəbi görüşlərin xatirəsi əbədilik olaraq yaddaşlarımıza həkk olunardı.**

M.S. Ordubadi adına kitabxanada Azərbaycan Dövlət Pedaqoji İnstitutun Naxçıvan filialının tələbəsi İsa Həbibbəyli tərəfindən əsası qoyulan və onun rəhbərliyi ilə fəaliyyət göstərən "Arazın səsi" ədəbi birliyi ədəbiyyat aləmində yenilikçi bir ədəbi məktəb kimi özünü tanıtmışdı.

### O illərdə

"Arazın səsi" ədəbi birliyinin məşğələlərində İsa Həbibbəyli, Akif İmanlı, Telman Qəhrəmanov (Ağrıdağ), Tağı Fərəcov, Vaqif Məmmədov, Bayram İsgəndərli, Altay Tağızadə, Muxtar Qasımzadə, İbrahim Yusifoğlu, Vaqif Kərimov, Musa Qubadlı müntəzəm iştirak edirdilər. Bu ədəbi birliyin fəaliyyətinə siyasi don geyindirib fəaliyyətini dayandırdıqdan sonra, Naxçıvan Dövlət Pedaqoji İnstitutunun özündə yeni ədəbi-birlik fəaliyyətə başladı. Yeni yaradılmış ədəbi birliyə institutun müəllimi, şair Əbülfəz Muxtaroğlu rəhbərlik etdi. Bu gün Azərbaycan ədəbiyyatında öz imzaları ilə tanınan Asim Yadıgar, Rafiq Babayev, İnqilab Orxan, Zeyqəm Vüqar, Məmməd Tahir, Sultan İsmayıl, Nizami Muradoğlu, Kəmaləddin Qədim və başqa müəlliflər ilk qələm təcrübələrini bu ədəbi birliyin məşğələlərində oxumuşdular. Oxunmuş əsərlər haqqında fikirlər söylənilir, bəyənilmiş şeir və hekayələr Muxtar Respublikanın Radio və Televiziyasında səsləndirilir, "Şərq qapısı" qəzetində dərc olunurdu.

### Ədəbi Birliyin məşğələlərinin birində

Naxçıvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə təhsil alan tələbələrindən gənc yazıçı Rafiq Babayevin və gənc şair Nizami Muradoğlunun yeni əsərləri dinlənildi və onların yaradıcılığına münasibətlər bildirildi. Onu da qeyd edim ki, 2012-ci ilədək Nizaminin şeirləri Nizami Məmmədov imzası ilə dərc olunurdu.

Əvvəl Rafiq Babayev öz hekayələrini oxudu. Az bir müddət içərisində Rafiqin imzası oxucular tərəfindən rəğbətlə qarşılanmış, bir neçə hekayəsi mərkəzi mətbuatda, Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan bölməsinin (indiki Naxçıvan Yazıçılar Birliyinin) tərtib etdiyi almanaxlarda çap olunmuşdu. Ədəbi-birlikdə Nizami Muradoğlu isə yeni şeirlərini oxudu. Birlik üzvlərindən çoxu onun şeirlərini ilk dəfə eşitsələr də, bu şeirləri səmimi qarşıladılar. Elman Həbib, Asim Yadigar, Sədaqət Həsənova, Muxtar Qasımzadə, Bayram İsgəndərli, Vaqif Kərimov, Cavanşir Ələkbərov Nizaminin şeirləri haqqında xoş sözlər söylədilər və ona daha böyük yaradıcılıq uğurları arzuladılar. Nizami Muradoğlunun şeirləri ardıcıl olaraq qəzet səhifələrində çap olunurdu. Naxçıvan şəhərində fəaliyyət göstərən radio və televiziyada gənc şairin çıxışına, şeirlərinin yayımına yer ayrılırdı. Hələ ali məktəbin tələbəsi olduğu vaxtlarda şeirləri toplu və almanaxlarda özünə yer tapırdı.

O illərdə Bakı şəhərindən Naxçıvana gələn tanınmış ədəbiyyatçı alimlərdən Bəkir Nəbiyevin Muxtar Respublikada yaşayan ədəbi qüvvələrin yaradıcılığından bəhs edən və Vilayət Partiya Komitəsində keçirilən müşavirədə oxuduğu məruzəsi çox diqqət mərkəzində dayanmış və geniş müzakirələrə səbəb olmuşdu. Bu geniş və məzmunlu məruzədə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun tələbəsi, gənc şair Nizami Muradoğlunun da yaradıcılığından söz açılırdı. Onun Böyük Vətən Müharibəsindən qayıtmayan bütün əmilərin xatirəsinə ithaf etdiyi "Ay çinar ağacı" poeması Bəkir Nəbiyev tərəfindən çox yüksək səviyyədə qiymətləndirildi:

*Əmim, taleyini soraqlayanda,*
*Taleyi üzünə gülməyibdimi?*
*Bir güllə ömrünü varaqlayanda,*
*Onu gözləyən var, bilməyibdimi?*

*... Anadan olanda ünvanlı olub,*
*Öləndə ünvansız ölübdü əmim.*
*Onun yadigarı bir çinar qalıb,*
*Həm mənim xatirəm, həm mənim qəmim.*

Nizami Muradoğlunun yaradıcılığına verilən belə yüksək qiymət onun bugünkü uğurlu yaradıcılığına işıqlı yol açdı.

Nizami Muradoğlu ali təhsilini başa vurduqdan sonra Ordubad rayonunda uzun illər Komsomol Təşkilatının rayon komitəsinin birinci katibi, Ordubad rayon İcra Hakimiyyətinin başçısı vəzifələrində işləmişdir. O, Ordubadlı gənclərin yaradıcılıq sahəsində hərtərəfli inkişaf etmələri üçün səylər göstərir və bu sahədə uğurlar əldə olunurdu. Məsul vəzifələrdə çalışmasına baxmayaraq, bədii yaradıcılıqla, qəlbən vurulduğu poeziya ilə müntəzəm məşğul olurdu. Bu istək və məhəbbətin nəticəsi idi ki, 1989-cu ildə "Yazıcı" nəşriyyatında "Qayıda bilmirəm " adlı ilk şeirlər kitabı işıq üzü gördü.



Bu kitabın nəşri o dövr üçün əsl nailiyyət idi. Hər "qələmə sarılan"ın yazdıqları mərkəzi qəzet və jurnallarda dərc edilmirdi, kitab halında kütləvi tirajla oxuculara çatdırılmırdı.

**Mən Nizami Muradoğlunun ədəbi yaradıcılığını 50 ilə yaxın bir dövrdən izləmişəm. Hansı janrda yazırsa yazsın, nə mövzusuda olursa olsun, əsərlərinin həcmindən asılı olmayaraq, oxucunu ələ alır, qəlblərdə özünə yer tapır.**

### Nizami Muradoğlunun yaradıcılığı

çoxşaxəli və rəngarəngdir. İlk növbədə Vətən haqqında silsilə seirləri, poemaları, publisistik yazıları onun hansı amala, hansı vətənpərvərlik hissi ilə yaşadığına parlaq sübutdur. Şair hər yerdə, hər misrada Vətən duyğularını son dərəcə ehtirasla, alovla, üsyankar təşbehlərlə ifadə edir. Hiss edirsən ki, Vətən onun öz canı, qanı, ruhudur. Vətən ağrıları onun qəlb ağrılarıdır. Vətən taleyi onun taleyidir. Daha doğrusu, onun taleyi Vətənin taleyindən asılıdır...

Nizami Muradoğlu üçün haradan başlanır Vətən?

Qoynunda dünyaya göz açdığı, sinəsində ilk addımlarını atdığı, gözəlliyinə görə, "Bala İstanbul" adlanan, daha çox tarixi abidələri özündə qoruyub saxlayan, şəhər tipli yaşayış məskəni olan, şeirlərində ecazkar tablosunu yaratdığı Əylis kəndindən başlayan Vətən:

*Sağda təkə qaya, solu Arsdağı,*
*Qaladı, səngərdi yanı Əylisin.*
*Mən onu heç vədə tərk etmədim ki,*
*Canımda yaşayır canı Əylisin.*

*Vəraqut, Nühgədih dayanıb başdan,*
*Şərbətdir suları süzülür daşdan.*
*Qız-gəlin oyadar sübhü obaşdan,*
*Şərqidən tökülər danı Əylisin.*

### Çinarları müqəddəs ağaclar kimi

qorunub saxlanılan, çeşmələri maddi-mədəniyyət nümunələri kimi əvəzedilməz abidələr hesab edilən, millətin gözəl adətlərinə əməl edən, gülü və limonu çox sevən, elm və mədəniyyətə çox meyilli olan, ləziz yeməklər, gözəl şirniyyatlar bişirilən, adamları dostluqda sədaqətli-etibarlı, işgüzar-zəhmətkeş, imanlı-inamlı, sözünə bütöv, əhdinə vəfalı Ordubad torpağı haqqında Nizami Muradoğlunun poetik düşüncələri hər bir oxucunun qəlbinə yol tapır:

*İnci tək bəzəkdir ana Vətənə,*
*Dağların qoynunda güldü Ordubad.*
*Hər daşı min tarix söyləyər sənə,*
*Danışan kitabdı, dildi Ordubad.*

*...Yuyunur Arazın ləpələrində,*
*Kəmkinin, Arsının ətəklərində.*
*Peyğəmbər ruhu var bəbəklərində,*
*Nuhun Vətənidi, eldi Ordubad.*

Naxçıvan... Azərbaycanın cənubuna bitişik, şimalından yad nəfəsiylə ayrılmış qədim, ulu Vətən torpağı! Dadlı-duzlu, bərəkətli, cövhərli torpaq! Ulu tarixi abidələrin, böyük sənətkar, alim övladların - güvənclərin öz yerində! Sənin yenə də ümidin - Vətən eşqini bayraq - bayraq başı üstə qaldıran qaynar təbiətli, narahat ürəkli, ayıq-sayıq oğullarındır. Sənə tərəf çoxdan boylanan, indisə yumruğuna dirənən yağı dişləri qıcanaqıcana qalıb. Sən geriləikcə, sıxıldıqca qranit yumruğa dönmüş Odlar torpağısan...

Nizami Muradoğlunun yaradıcılığında görürük ki, bu gün Naxçıvanın ulu abidələri də, sənətkar, alim övladları da, dadlı-duzlu, bərəkətli, cövhərli torpağı da bir yumruğun içindədir:

***Hər daşının üzü doğma,***
***Yolu doğma, izi doğma.***
***Bu şəhərin özü doğma -***
***Naxçıvanım.***

***Unutmaram o illəri,***
***Çiçəklərdi sevgiləri.***
***Arzularımın şəhəri -***
***Naxçıvanım.***

Vətən, vətəndaşlıq hissi, Vətənin ağrı-acısı, bir sözlə, torpaqlarımıza edilən təcavüzlər, XX əsrin son onilliyinin bəlaları Nizami Muradoğlu yaradıcılığında şairin ürəyini göynədən yaradır, qəmdir, kədərdir.

*Azərbaycan - ana yurdum, məskənim,*
*Araz boyu o tay, bu tay Vətənim,*
*Nisgilimsən, həsrətimsən sən mənim,*
*Şərəfimsən, şöhrətimsən sən mənim,*
*Vətənimsən, Vətənimsən, Vətənim!*

*Sənin bölünməyin mənim günahım,*
*Özümün -özümə xəyanətimdir.*
*Tökülən göz yaşım, çəkilən ahım*
*Sənin kiçilməyin qəbahətimdir.*

Nizami Muradoğlunun seirlərini oxuyarkən daxili aləminin zənginliyi, gələcəyə qırılmaz ümidi, eyni zamanda, bu günə qədər keçdiyi həyat yollarının heç də hamar olmadığı lirik qəhrəmanın fonunda çox gözəl, poetik boyalarla verilir.

### Saf və təmiz məhəbbət

hər zaman şairlərin yaradıcılıq ilhamı aldığı ədəbi bir duyğudur. Məncə, qəlbi bu məhəbbətdən məhrum olan şair yoxdur. Məhəbbət bitən yerdə şairlik də bitir. Nizami Muradoğlu şeirlərində məhəbbət lirikası xüsusi yer tutur. O, bulaq suyu kimi saf, dağ havası kimi təmizdir:

***Bir ömür yol getdim, yarı olmadı,***
***Mən ona can dedim, canım olmadı,***
***Bu sevda yolunu mən necə gedim?***
***Sevdiyim o afət, xanım olmadı,***
***Bu sevda yoluna getmərəm daha.***

Qeyd etdiyimiz kimi, Nizami Muradoğlunun bədii yaradıcılığı çoxşaxəli, mövzu çalarlığına görə rəngarəng, məkan baxımından hüdudsuzdur.

Bu hüdudsuz məkanı dolaşmaq, rəngarəng güllərin ətrini çəkmək bir ürəyin işi deyil. Mən inanıram ki, şair dostumuzun bədii əsərləri, bütövlükdə öyrəniləcək, bu cəfakeş şairin yaradıcılığı hərtərəfli təhlil ediləcək və öz qiymətini alacaqdır.

Onu da qeyd edək ki, Nizami Muradoğlu 15-dən artıq şeirlər və poemalar, nəsr kitablarının müəllifi olmaqla, həm də elm sahəsi ilə məşğul olur, filologiya elmlər doktorudur. Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda "Təhsil" şöbəsinin müdiri vəzifəsində çalışır. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür, "Vətən Media", "Həsən bəy Zərdabi", "Qızıl qələm" media mükafatları laureatıdır.

Nizami Muradoğlu yaddaşlarda kövrək xatirələrin işığında müdrikləşən, öz poeziyası ilə qəlblərdə özünə yer tapan, hər yerdə hər an, səmimi xatırlanan müqəddəs ömrünün 65-ci baharına qovuşur.

**Şair ömründə boran da olar, çovğun da. Nadanların nadanlığına tuş gələr də. Təki qələmi soyumasın. Ömrünün bu çağında Nizami Muradoğlunun saçlarına dən düşsə də, qələmi iti, qəlbi cavan, ürəyi alovludur. Biz də istəyirik ki, həmişə belə olsun!..**